**UOT 48.41.45**
**https://doi.org/10.59849/2311-8482.2024.3.278**

**RÜXSARƏ HÜSEYNOVA ***

# OPERETTA TARİXİNDƏN

*Təqdim olunan məqalə operetta janrına həsr olunub. Komediya məzmunlu musiqili səhnə əsəri olam operetta uzun əsrlərdir ki xalqın sevə-sevə tamaşa etdiyi janrlardan biridir. Məqalədə bu janrın yaranma tarixi, inkişaf yolu, onun məzmunu, tərkibi və eyni zamanda operetta janrı sahəsində çalışan bəstəkarlar və onların məşhur əsərləri haqqında ətraflı məlumat verilir. Bununla yanaşı operetta və opera janrları arasındaki oxşar və fərqli cəhətlər haqqında söhbət açılır.*

***Açar sözlər:*** *operetta, J.Offenbax, mahnı və rəqs, musiqili komediya*

## Giriş

*Operetta* (italyanca "kiçik opera")— simfonik orkestrin müşayiəti ilə ifa edilən, vokal-rəqs səhnələrindən və danışıq epizodlarından ibarət olan komediya məzmunlu musiqili səhnə əsəridir. Belə ki, müasir mənada operetta musiqi və teatr janrlarından biri olaraq, söz, səhnə hərəkətləri, musiqi ilə xoreoqrafiyanın sintezinə əsaslanan, birdən beşə qədər pərdəsi olan musiqili səhnə tamaşasıdır. Operetta, eyni zamanda musiqili komediya da adlanır. Lakin onlar sinonim kimi istifadə olunsalar da musiqili komediyaya nisbətən operettada musiqinin əhəmiyyəti daha böyükdür.

Əsas təhlil

Operettada vokal musiqi, rəqs, estrada sənəti elementlərini özündə əks etdirən balet, xor, danışıq dialoqları vəhdət təşkil edir. Operettanın mustqi dramaturgiyasının əsası adətən kuplet mahnı və rəqslərdən ibarət olur. Janr əlamətlərinə görə operetta komik operaya yaxındır, lakin komik operadan fərqli olaraq operetta üçün danışıq dialoqlarının geniş dairəsi daha səciyyəvidir. Opera ilə müqayisədə operetta daha "yüngül" janrdır. Bu teatr tamaşası əyləncəli xarakter daşıyır və onun süjeti çox vaxt komik xüsusiyyətə malik olur və onda istehzalı bir fon, romantik bir çaşqınlıq özünü göstərir. Eyni zamanda operettada mövcud siyasi sistemə, ictimai asayişə və sosial məsələlərə kəskin satira əks etdirilir. Süjetdə hekayə təkcə vokal ifaçılıq yolu ilə deyil, həm də rəqslər, eləcə də personajlar arasında dolğun dialoqlar vasitəsilə həyata keçirilir. Operettaların əksəriyyəti həyatın hansı təlatümlərinin və insan taleyində yaşanan sınaqların mürəkkəbliyindən asılı olmayaraq, əsasən major tonunda, həyatı təsdiqləyən, müsbət notda bitir. Musiqisi isə həmişə əyləncəli və həyəcanlıdır. Bu musiqi mövcud olduğu dövrün və ölkənin musiqi məişətilə bağlı olmuşdur. Operetta həcmcə operaya nisbətən kiçikdir və daha asan qavranılır. Onda həm farsa, həm absurd, həmçinin lirikaya yer ayrılır. Operettanın dialoqları bəzən musiqi fonu olmadan, bəzənsə orkestrin sakit müşayiətilə verilir. Operettanın operadan fərqli olaraq hər bir pərdəsi rəqslə bitir. Operettada operaya məxsus musiqi formalarından, məsələn, ariya, duet, ansambl, xor istifadə edilsə də, onlar operadan öz sadəliyi və mahnı-rəqs xarakterilə seçilir. Bütün vokal partiyalar kuplet-mahnı formasında yazılır. Onda musiqili-vokal və xoreoqrafik nömrələr hadisələrin inkişafına, əsərin əsas ideyasının təsdiqinə xidmət edir və musiqi əsas rol oynayır.

Operettanın kökləri bir çox xalqlar arasında yayılmış musiqili komediya tamaşaları ənənəsinə gedib çıxır və sələfləri antik misteriyalar, komik opera, opera parodiyaları, fransız vodevili, alman zinqişpili hesab edilir. Müxtəlif Allahlar, o cümlədən şərab Allahı Dionisin şəninə təşkil edilmiş antik misteriyalarda operettanın bəzi cizgiləri artıq özünü göstərirdi. Bu ***şənliklərində operetta üçün xarakterik olan musiqi, pantomima, aktyor oyununun, sevgi intriqasının, rəqsin vəhdətini, qovuşuğunu izləmək olar.*** Hələ orta əsrlərdə Avropada səyahət edən sənətçilər aristokrat zadəganları və ruhaniləri ələ salan şən şeirlər və təsirli mahnılar ifa etmiş və onların çıxışları rəqslər və akrobatik nömrələrlə müşayiət olunmuşdur. Belə ki, operetta bir neçə yüz il ərzində yunan komediyaları, orta əsr misteriyalarının ən yaxşı cəhətlərini mənimsəyərək tədricən formalaşmışdır. Onun birbaşa əcdadı komik opera və vodevil olmuşdur. İlkin komik operalar, eləcə də ingilis ballada operası, alman zinqişpili, ispan tonadili və zarzuellası və rus komik operasında artıq klassik operettaya xas xüsusiyyətlər- demokratik məzmun, sintetik quruluş, oxunun danışıq dialoqları ilə növbələşməsi, şəhər musiqi folkloru və məişət musiqisilə əlaqə, parodiya, satiraya meyl özünü göstərirdi. Lakin

aralarında daxili ümumilik və qarşılıqlı əlaqəyə baxmayaraq bu janrların hər birinin müəyyən mövzu və xarakterlər dairəsində, musiqi forması, musiqi və söz arasındakı münasibətində özünəməxsus milli xüsusiyyətləri olmuşdur. Bu da gələcəkdə operetta sənətinin milli növlərinin təbiətinə müəyyən təsir göstərmişdir. Zarafat və musiqi ilə maraqlı və əyləncəli çıxışlar vodevil adlanırdı. Onların qəhrəmanları aristokratları məğlub edən sadə insanlar olmuşdur. Vodevildə dinləyicilər tərəfindən asanlıqla qəbul edilən və asan yadda qalan mahnılardan istifadə edilirdi. Vodevildən və musiqinin köməkçi, yönləndirici və dekorativ rol oynadığı musiqili komediya və musiqili dramın digər növlərindən fərqli olaraq, operettanın vokal və xoreoqrafik nömrələri hərəkətin inkişafına, əsərin ideyasının təsdiqinə xidmət edir.

Operettalar məzmun və formasına görə son dərəcə rəngarəngdir. Buna parodiyalı, parodiyalı –satirik operettalar, lirik-komik və lirik-romantik operettalar, qəhrəmani-romantik operettaları, melodrama-buff və s. misal göstərmək olar. Bununla yanaşı sabit janr və üslub xüsusiyyətlərinə malik milli-tarixi operetta növləri kimi “Paris”, “Vyana” və “Yeni Vyana” operettalarını da qeyd etmək olar. Qeyd etdiyimiz kimi, operettalar adətən xoşbəxt finalla bitir və onun üçün yumor, stira və məhəbbət intriqası xarakterikdir. Operettanın sintetik təbiəti, müasir məişət və estrada musiqisi ilə sıx bağlılığı bu sənət növünün populyarlığına və geniş auditoriya üçün əlçatan olmasını səbəb olmuşdur.

Müstəqil bir janr kimi operetta XIX əsrdə Fransada yaranmışdır. 5 iyul 1855-ci il tarixində operetta janrının yaradıcısı, “atası” hesab olunan J.Offenbax (ilk yaradıcılarından biri də F.Erve olmuşdur) Fransada Yelisey meydanında öz kiçik –“Buf-Pariziyen” teatrını açmış və həmin gündən operetta janrının yaranmasnın əsası qoyulmuşdur. Sonradan bu janr bütün Avropa ölkələrinə yayılmışdır. Xüsusilə, avstriya (vyana), ingilis və amerikan operettaları bir-birindən fərqlənmişdir. J. Offenbax teatr sənətinin bu növünü tamamilə yeni səviyyəyə qaldırmış, onun inkişafı üçün yeni bədii üfüqlər açmış, bu janrın ilk klassiki olmuşdur. J.Offenbaxın yaradıcılığında parodiyalı operetta böyük inkişaf yolu keçmiş və tədricən sosial satira səviyyəsinə çatmış, dövrün güzgüsü olmuşdur. Yəni, musiqili səhnə həyatına parodiyalar ilə başlayan Offenbax tezliklə janrın sərhədlərini aşaraq, lirik-komediya xarakterli miniatürlər yazmışdır. Sonra isə o, əsərlərində geniş musiqi əsaslı süjet hazırlamış və burada parodiya elementləri öz yerini müasir Fransanın adətlərini qeyd edən, siyasi həyatın mühüm məqamlarına toxunan təfərrüatlı satiraya vermişdir. 100-dən artıq operettanın müəlligi olan Offenbax öz əsərlərində mifoloji və nağıl süjetlərindən istifadə etsə də , bu əsələr öz müasirliyilə seçilmişdir. Bu dövrdə Offenbaxın yazdığı operettalardan “Mavi saqqal”, “Gözəl Yelena”, “Orfey cəhənnəmdə”, “Barabantlı Genevyev”, “Perikola” , “Trabizond şahzadəsi, “Paris həyatı” və s. göstərmək olar. Offenbax əsərlərində şəhər folkloruna yaxın melodiyalar yaratmış, marş, qalop, kankan, vals, balero kimi rəqslərdən istifadə etmişdir. Onun ölməz əsərləri bu gün də öz virtuozluğu, çoxşaxəliliyi ilə seçilir və bütün dünyada ifa olunur. Məhz Offenbax sayəsində Paris operettası beynəlxalq miqyaslı sənətə çevrilmiş və onun yaradıcılıq təcrübələri dünya musiqi teatrları tərəfindən qəbul edilmiş və musiqi mədəniyyəti tarixinə böyük tövhələr bəxş etmiş sənətkarlar dəstəsi yaranmışdır. Buna Robert Plunket, Şarl Lekoq, Edmond Audran Erven ( “Gözdən vurulmuş”, ”Kiçik Faust” )və s. kimi bəstəkarlar parlaq misal ola bilər.

XIX əsrin sonlarından isə operettanın siması dəyişilir, J.Offenbax, Ş.Lekok, K.Çeller, İ.Ştraus-oğul, F.Zuppe və b. parodiyadan imtina edərək məişət, lirik-romantik süjetli operettalar yaratmışdırlar. Operettaların musiqisində lirik başlanğıc üstünlük təşkil edir, xüsusilə, vals melodiyasına geniş yer verilir. Offenbaxın “Madam Favar”, “Tambur Majorun qızı”, F.Ervenin “Madmuazel Nituş”, Ş.Lekoqun “Madam Anqonun qızı”, “Jirofli-jirofliya”, R.Plunketin “Krnevil zəngləri” , F.Zuppenin “Gözəl Qalateya”, “Donna Juanita” , K.Çeller “Quş satıcısı” və s. bu dövrün uğurlu əsərlərindən olmuşdur.

Operetta bir musiqi janrı kimi Vyanada xüsusilə sevilmişdir. Vyana klassik operettasının böyüklüyü və parlaqlığını əks etdirən, onun əsas sərvəti və qüruru sayılan, möhtəşəm, nəcib melodiyalar ustası, operetta sahəsinə 479 əsər bəxş etmiş oğul İohan Ştraus olmuşdur. Ştrausun operettaları öz romantikliyi, xəyalpərəstliyi, həmçinin işıqlı lirikası ilə seçilmişdir. Oğul Ştrausun “Roma karnavalı” və “İndiqo və qırx quldur” operettalarından sonra o, operetta janrı sahəsində öz şah əsəri olan “Yarasa” əsərini yaratmışdır. 42 günə yazılmış bu əsərlə Ştraus tatixə rəqsvari Vyana operettasının yaradıcısı kimi daxil olmuşdur. Bəstəkarın digər operettaları arasında “Şən müharibə”, “Qaraçı baronu”, “Venesiyada gecə” əsərləri də ona dünya şöhrəti qazandırmışdır. Belə bir fikir vardır ki, məhz Ştraus sayəsində operetta yüngül, şən, zərif geyimli və parlaq səsli musiqili komediyaya

çevrilmişdir. Onun ənənələri “Silva” (Çardaş kraliçası), “Maritza”, “Sirk şəhzadəsi” kimi məşhur operettaların müəllifi, görkəmli macar bəstəkarı İmre Kalman tərəfindən davam etdirilmişdir. İmre Kalman operettalarının musiqisinin öz şənliyi, zərifliyi, melodiya mükəmməlliyi və orkestri cəhətdən tayı-bərabəri yoxdur. Eyni zamanda, o, Ştrausa xas olmayan, lakin Kalmanın ən erkən operettalarında mövcud olan “kədərli lirik valsın” virtuoz ustası hesab olunur.

XX əsrdə operetta tarixində ən böyük nailiyyət bəstəkar Frans Leqarın adı ilə bağlıdır. Bəstəkar öz operettalarında melodik cəhətdən misli görünməmiş zirvələrə çatmışdır. Onun yaradıcılığı macar ritm və intonasiyalarına əsaslanır. Ümumiyyətlə, musiqi zənginliyinə görə heç kim onunla müqayisə edilə bilməz. Onun operettaları dünya opera sənətinin ən yaxşı nümunələrindən heç də geri qalmır. Leqarın şah əsəri olan “Şən dul qadın” operettası dünyada ən çox ifa olunan operettalar sırasındadır. Onun digər operettalarından “Qraf Lüksemburq”, “Qaraçı məhəbbəti”, “Paqanini” və s göstərmək olar. Leqarın operettalarında mərkəzi yeri vals tutur, lakin klassik Vyana operettasının valslarının işıqlı lirikalarından fərqli olaraq, Leqarın valsları gərginliyi ilə seçilir.

İngilis operettasının çiçəklənmə dövrü ilk növbədə V.Gilbert və A.Sallivanın ölməz əməkdaşlığının 14 möhtəşəm bəhrəsi ilə bağlı olmuşdur. Gilbertin satirik istedadı, Sallivanın musiqisinin gözəlliyi ilə birləşərək “Pinafor”, “Penzans dəniz quldurları” , “Mikado”, “Qvardiyaçı” və s. kimi yüksək ruhlandırıcı əsərlər ortaya qoymuşdur.

Rusiyada operetta janrı sovet operettalarının unikal nümunələrini yaradan İ.Dunayevski tərəfindən formalaşmışdır (Həm bizim, həm də sizin”, “Bəylər”, “Qızıl dərə”, “Sərbəst külək” , “Ağ akasiya” və s.). Operetta janrı sahəsində həmçinin rus bəstəkarlarından Q.Sviridov (“İşıqlar”), D.Kabalevski (“Bahar oxuyur”), D.Şostakoviç (Moskva, Çeryomuşka”) də fəal çalışmışlar.

Azərbaycanda bir çox sahələrdə olduğu kimi operetta janrının yaradıcısı da dahi Ü.Hacıbəyov olmuşdur. Onun ilk operettası 1910-cu ildə tamaşaya qoyulmuş “Ər və arvad” operettasıdır. Bəstəkar bu əsərdə cəhaləti, avamlığı tənqid etmiş və əsərində bu cür insanların öz qazdıqları quyuya necə düşdüklərini açıb göstərmişdir. Operetta böyük uğur qazanmış və dinləyicilər tərəfindən maraqla qarşılanmışdır. Görkəmli yazıçı M.İbrahimov operettanı yüksək qiymətləndirərək yazmışdır: “Bu komediya.... həm məzmunu, ideyasının dərinliyi, ifşaçılıq qüvvəsi cəhətdən, həm də bədii keyfiyyətləri ilə klassik səviyyəyə qalxır. Burada da müəllif zəmanəsi üçün səciyyəvi olan mütərəqqi və mürtəce qüvvələr arasındakı mübarizəni dramatik konfliktin mərkəzinə qoymuşdur” (2.səh.7). Bu operettanın ardınca 1911-ci ildə bəstəkarın növbəti , “O olmasın, bu olsun” və 1913-cü ildə isə ona dünya şöhrəti qazandıran “Arşın mal alan” operettası yaranmışdır. “Arşın mal alan” operettası bir çox dillərə tərcümə edilmiş, ən böyük səhnələrdə uğurla tamaşaya qoyulmuş, 1945-ci ildə isə onun əsasında eyniadlı film çəkilmişdir. Ü.Hacıbəyov tərəfindən əsası qoyulmuş bu janr ondan sonra gələn bəstəkarlar tərəfindən böyük həvəslə davam etdirilmişdur. Buna Z.Hacıbəyovun “50 yaşında cavan”, F.Əmirovun “Gözün aydın”, S.Rüstəmovun “5 manatlıq gəlin”, “Durna”, S.Ələsgərovun “Ulduz”, R.Hacıyev “Romeo mənim qonşumdur” və s. parlaq misal ola bilər.

**Nəticə**

XX əsrdə Avropada baş verən hərbi və milli qarşıdurmalar ona gətirib çıxardı ki, bir çox operetta bəstəkarları müxtəlif səbəblərdən ABŞ-a mühacirət edir və artıq öz musiqili komediya ənənələri olan bu ölkədə işləməyə başladılar. Bu janrların həmin illərdə yaranmış caz musiqisi ilə, əsrin ikinci yarısından isə rok musiqisi ilə qovuşması yeni musiqili teatr növünün - myuziklin yaranmasına səbəb oldu.

**ƏDƏBİYYAT**

1.Jukova L.”İskusstvo operettı” M.1967
2.Ü.Hacıbəyov, Seçilmiş əsərləri, 1985

**Rukhsara Huseynova**

**FROM THE HISTORY OF OPERETTA**

The presented article is dedicated to the operetta genre. Operetta, a musical stage work with a comedic content, has been one of the genres that people have been watching with love for many centuries. The article provides detailed information about the history of the creation of this genre, its

development path, its content, composition, as well as composers working in the field of the operetta genre and their famous works. In addition, the discussion opens on the similarities and differences between the operetta and opera genres.

**Keywords:** *operetta, J. Offenbach, song and dance, musical comedy*

**Рухсара Гусейнова**

**ИЗ ИСТОРИИ ОПЕРЕТТЫ**

Представленная статья посвящена жанру оперетты. Оперетта «Олам» — музыкально-сценическое произведение комедийного содержания — один из жанров, который люди с удовольствием смотрят на протяжении многих столетий. В статье представлена подробная информация об истории этого жанра, его развитии, содержании, составе, а также о композиторах, работавших в области опереточного жанра, и их знаменитых произведениях. В то же время идет разговор о сходстве и различии жанров оперетты и оперы.

**Ключевые слова:** *оперетта, Ж. Оффенбах, песня и танец, музыкальная комедия.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.09.2024**
**Son daxilolma tarixi:28.10.2024**